# Yevlaxlı şəhidlər barədə kitabın təqdimatı olmuşdur

Yevlaxda “Zəfər fədailəri: Yevlax şəhidləri” kitabının təqdimat mərasimi keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə Şəhidlər xiyabanını ziyarət etmişlər.






Heydər Əliyev Sarayında davam edən tədbirdə çıxış edən Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Anar Tağıyev qeyd etmişdir ki, 44 günlük Vətən savaşında Yevlaxın 65 qəhrəman övladı şəhid olmuşdur: “Amma onların qanı yerdə qalmadı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin başçılığı ilə Azərbaycan Ordusu düşmənin belini qırdı, başını əzdi. Sizin, bizim, bütün xalqın intiqamı alındı. Şəhidlərimizin ruhu bu gün çox rahatdır. Bu isə xalqımız üçün ən böyük təsəllidir. Bu yaxınlarda başlamasının bir illiyini qeyd edəcəyimiz Vətən savaşına Yevlaxın yüzlərlə qəhrəman övladı yollanmışdı. Onlar Qarabağ uğrunda Suqovuşandan Şuşayadək Zəfər yolu keçdilər. Bütün əsgərlərimizin döyüş yolu bir qəhrəmanlıq məktəbi, vətənpərvərlik örnəyidir. Bizim borcumuz isə bu qəhrəmanlıqları yazılı tarixə çevirmək, onu yeni nəslə çatdırmaqdır. Bu gün təqdimata yığışdığımız “Zəfər fədailəri: Yevlax şəhidləri” kitabı da məhz bu amalın, bu niyyətin nəticəsində meydana çıxmışdır”.

Tədbirdə Vətən müharibəsini əks etdirən video-çarx nümayiş etdirilmişdir. Sonra Yevlaxın ilk şəhidi Kazımov Emin Fərman oğlunun atası Fərman Kazımov, Milli Məclisin deputatı İlham Məmmədov və Vətən müharibəsi qazisi Orxan Hüseynov çıxış etmişlər.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***

Azərbaycan.- 2021.- 24 sentyabr.- S.6.